*YAPONİYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

9 fevral, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

## ***Yaponiya Hökumətinin İnkişafa Rəsmi Yardım Kredit Proqramı çərçivəsində həyata keçiriləcək 319 milyon ABŞ dolları məbləğində "Kiçik şəhərlərdə su təchizatının və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi" kredit layihəsi üzrə Notalar Mübadiləsi üzrə sənədlərin imzalanması mərasiminin keçirilməsi***

9 fevral 2009-cu il tarixdə günün ikinci yarısında (dəqiq vaxt bir az sonra bildiriləcəkdir) Azərbaycan Respublikası Nazirlər Kabinetinin binasında Yaponiya Hökumətinin İnkişafa Rəsmi Yardım Kredit Proqramı çərçivəsində həyata keçiriləcək **319 milyon ABŞ dolları (32,851,000,00 yapon Yeni)** məbləğində "Kiçik şəhərlərdə su təchizatının və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi" kredit layihəsi üzrə Notalar Mübadiləsi üzrə sənədlərin imzalanması mərasimini keçirəcəkdir.

Sənədləri Yaponiya tərəfindən Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Zati-aliləri cənab Masamitsu Oki, Azərbaycan Hökuməti tərəfindən isə Azərbaycan Respublikası Baş Nazirin müavini Zati–aliləri cənab Abid Şərifov imzalayacaqdır.

Layihənin əsas məqsədi Azərbaycanın 10 rayonunda su təchizatı və kanalizasiya sistemlərini bərpa etməkdir. Layihənin həyata keçiriləcəyi rayonlar bunlardır: Şirvan, Xaçmaz, Salyan, Nefçala, Yevlax, Bərdə, Xızı, Qusar, Qobustan, və Naftalan. Layihədən bəhrələnəcək insanların sayı təqribən **700,000** nəfərdir. Yaponiya Hökuməti həqiqətən ümid edir ki, hazırkı layihə adı çəkilən rayonlarda yaşayan insanların rifahına öz töhfəsini verəcəkdir.

1998-ci ildən etibarən Yaponiya Hökuməti Azərbaycanda bu layihə də daxil olmaqla ümumi dəyəri **665 milyon ABŞ dolları** olan 4 kredit layihəsi həyata keçirmişdir.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği təqribən **775 milyon ABŞ dolları** təşkil etmişdir.

***Yaponiya Səfirliyində Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz:***
***490 78 18/490 78 19; Fax: 490 78 20***